Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 226 (1354) 8 dekabr - 9 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# KÜRDƏMİR: İNKİŞAF SEVİNC BƏXŞ EDİR

(əvvəli ötən saylarımızda)

**Xidmət sahəsində olan 186 ədəd qaz tənzimləyicilərinə və 303 ədəd siyirtmələrə mütəmadi texniki xidmət göstərilmiş, mənzillərə texniki baxış keçirilməsi və müqavilələrin yenilənməsi işləri hər gün davam etdirilir.**

Rayonun qaz açılışı olmuş 25 kəndində son tamamlama işləri davam etdirilərək kodlaşma başa çatdırılmaq üzrədir.

Muradxan və Mollakənd kəndlərində tikinti quraşdırma işləri maliyyə vəsaiti ayrılmadığına görə müvəqqəti olaraq dayandırılmışdır.

Artıq rayon mərkəzində SMART tipli qaz sayğaclarının quraşdırılmasına start verilmişdir. Hesabat dövrü ərzində 390 ədəd SMART tipli qaz sayğacı quraşdırılmışdır .

Rayonun elektirik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində 2016-cı ilin III rübü ərzində əhalinin elektrik enerjisinə olan tələbatını ödəmək məqsədi ilə 35/10 kv-luq Muradxan, Pirili, Axtaçı və Mollakənd yarımstansiyalarında cari təmir işləri aparılmışdır.

Kürdəmir rayon mərkəzində və kəndlərin ərazisində ümumilikdə 8.9 km 10 kv-luq və 5,5 km 0,4 kv-kuq hava xətləri yenidən qurulmuş, 555 ədəd smart kart tipli sayğac quraşdırılmışdır.

Muradxan, Dayıkazımlı kəndində və 28 may hava verilişi xəttində 243 ədəd dayaq qurulmuş, yeni məftillər çəkilmişdir.

Xırdapay və Topalhəsənli kəndlərində 2 ədəd 400 və 200 kVa-lıq transformator quraşdırılmış, 440 ədəd təzə dayaq qurulmuş, 11000 metr Sip kabel çəkilmişdir.

**"... Ərzaq təhlükəsizliyi ilə bağlı institusional islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması prosesi də çox önəmlidir.**

**Bizim ixrac potensialımızın artırılması da gündəlikdə duran məsələlərdən biridir. Çünki əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün ərzaq məhsullarımızla təmin edəcəyik".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının prezidenti***



Rayon ərazisində 17 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 18 ədəd transformator əsaslı, 65 ədədi isə cari təmir olunmuşdur.

İstifadə edilmiş enerji daşıyıcılarının dəyərinin 100 % ödənilməsi nəzərdə tutulduğu halda son 9 ayda əhali sektoru üzrə istehlak edilmiş enerjinin dəyərinin cəmi 70,4 % yığımı təmin edilmişdir.

9 ay ərzində rayon üzrə paylanmış bildiriş üzrə 1878704 manata qarşı 1634274 manat vəsait toplanmışdır ki, bunun nəticəsində 244430 manat debitor borcu yaranmışdır.

Rayon elektrik şəbəkəsinin rəhbərliyi rayon əhalisinin elektrik enerjisi ilə fasiləsiz və itkisiz təmin edilməsi məqsədi ilə sıradan çıxmış elektrik dirək və naqillərin tez bir zamanda yeniləri ilə əvəz olunmasına nail olmalı, SİP kabelləşmə və kart-sayğac sisteminə keçirilməsi işlərini sürətləndirməli, istifadə edilmiş enerji daşıyıcılarının dəyərinin tam ödənilməsini təmin etməlidir.

Dövlət proqlamına uyğun olaraq 2016-cı ilin III rübündə Kürdəmir şəhər əhalisinə içməli su və çirkab suların axıdılması üzrə xidmətlərin yaxşılaşdırılması sahəsində müəyyən işlər görülmüşdür.

2016-cı ilin 9 ayında Kürdəmir şəhərinin küçə xətlərində 46 ədəd su borularındakı nasazlıqlar təmir edilərək su axıntısının qarşısı alınmışdır. 2016-cı ilin 9 ayında şəhərin H.Əliyev və Bakı prospektləri, H.Aslanov, M.Ə.Sabir, İ.Məmmədov, Nizami küçələrindəki və Aran qəsəbəsindəki mərkəzi kanalizasiya xətti üzərindəki baxış quyuları lildən təmizlənmiş, sınmış qapaqlar dəyişdirilmiş, xəttin tutulmasının qarşısını almaq məqsədi ilə metal barmaqlıqlar qoyulmuşdur. Şəhərin H.Əliyev prospektində 15 ədəd, Koroğlu küçəsində 3 ədəd, M.Əzizbəyov küçəsində 2 ədəd, 20 yanvar küçəsində 3 ədəd baxış quyusunun yanları betonlanaraq yararlı vəziyyətə gətirilmişdir.

2016-cı ilin 9 ayı ərzində rayon Kommunal Müəssisələri Kombinatı və Mənzil İstismarı sahəsi şəhərin bütün küçə və meydanlarının daim təmiz və səliqəli saxlanılmasında səylə çalışmış, ərazilərdə olan məişət tullantılarının mütəmadi götürülməsi təmin olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Kombinatın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində, 2016-cı ilin avqust ayında bir ədəd "ZOOMLİON" markalı çirkab avtomaşını dəyəri ödənilmədən əvəzsiz olaraq rayona verilmişdir.

2016-cı ilin 9 ayı ərzində rayon Kommunal Müəssisələr Kombinatı tərəfindən əhalidən 6952 manat, kommersiya obyektlərindən isə 1075 manat vəsait toplanmışdır.

Mənzil İstismar sahəsi ev kirayəsindən 3540 manat, komunal xidmətlərə görə 5693 manat vəsait toplamışdır.




### *Tikinti-quruculuq və abadlıq işləri yeni məhələdə*

**Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq 2016-cı ilin 9 ayı ərzində rayonda tikinti-quraşdırma, yenidənqurma və abadlıq işləri yerinə yetirilmişdir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ